# Kinomuzun Cəlalı, Muradı...

**Dünən kinomuzun daha bir əfsanəsini itirdik. Ölüm haqq olsa da, Azərbaycanın Xalq artisti Ənvər Həsənovun vəfatına hamılıqla heyfsilənirik. "Uşaqlığın son gecəsi"nin Muradı, "Yeddi oğul istərəm"in Cəlalı, "Dərviş Parisi partladır"ın Şahbaz bəyi, "Babək"in Tərxanı, neçə filmin rejissoru, ümumiyyətlə, xalqın sevimli sənətkarı idi Ənvər Həsənov.**

Keçən il onunla görüşüb sənət barədə söhbət etmək istəyirdik. Dostu Dilafət müəllim zəng edib xahişimizi çatdırdı. O isə: "Bir az nasazam, sağalım, görüşərik" – deyə cavab verdi. Təəssüf ki, bu, mümkün olmadı. Kinomuzun əfsanələrindən biri bizləri tərk edib getdi...

Tələbəlik yoldaşım, yazıçı Nurəddin Ədiloğlu düz 55 il əvvəl Ənvər Həsənovu ilk dəfə gördüyünü böyük sevgi ilə danışırdı: "Yay tətilində Masallıdan Bakıya, qohumum – əmək qəhrəmanı Məhəmməd Hüseynovgilə qonaq gəlmişdim. Əmioğlularım və qonşu uşalarla futbol oynayırdıq. Top meydançadan kənara çıxanda küçə ilə gedən Murad ("Uşaqlığın son gecəsi") cəld hərəkətlə, özü də peşəkar futbolçulara məxsus fəndlə topu saxlayıb, sağ ayağından sol ayağına, soldan da sağa çiləyərək bizə tərəf atdı. Uşaqlardan kimsə ona ucadan "Çox sağ olun" – dedi. O da bizə baxıb xəfifcə gülümsündü. Yaraşıqlı idman gödəkçəsində, enlibalaq cins şalvarda gördüyüm aktyor indi də gözümün qabağındadır. Şaçları çiyinlərinə tökülmüşdü, uzun bakenbardları üzünün yarsına qədər uzanmışdı. Tələbə olduğunu, M.A.Əliyev adına ADİİ-nun kino və dram aktyorluğu fakültəsində təhsil aldığını da bilmirdim. Sadəcə heyrətlə uşaqlıq dünyamın ən sevimli film qəhrəmanına baxırdım. O çöhrəsindəki təbəssümlə bizdən uzaqlaşıb getdi. Çox sonralar öyrəndim ki, 1969-cu ildə ekranlara çıxan "Uşaqlığın son gecəsi" filmi beynəlxalq festivalda 5 diplom alıb. Ənvər də "Ən yaxşı kişi rolu" mükafatı ilə təltif olunub".

Mərhumun dediyinə görə, həmin filmdəki Muradla həyatdakı Ənvər arasında elə də fərq yox idi. Çünki o da həyatda



çılğın, şıltaq olub. Hərdən "Uşaqlığın son gecəsi"nə çəkildiyi günləri bir kino lenti kimi gözünün önündən keçirirmiş. O əlçatmaz, ünyetməz illərə qayıdıb, cavanlığını yaşamaq istədiyini dilə gətirirdi. Deyirdi ki, kim cavanlığına qayıtmaq istəməz ki? Amma artıq yaş özünü göstərir... Əvəzində o, nəvəsinin adını Murad qoymuşdu.

Bəli, düz deyiblər ki, ömrün son dayanacağına kimin nə vaxt və necə çatacağı Uca Yaradandan savayı, heç kəsə bəlli deyil. Artıq Muradın – Ənvərin ruhu bir zaman "Dərviş Parisi partladır", "Atları yəhərləyin" və "Sonuncu döyüş" filmlərində birgə çəkildiyi, 17 il əvvəl isə avtomobil qəzasında həyatını itirmiş ömür-gün dostu, kinoaktrisa Mömünat Qurbanovaya qovuşdu...

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2025.- 18 mart (№ 59). - S.14.